● Yurda qayıdış

# "Ata-baba ocağındayam"



**Geniş quruculuq və bərpa işləri aparılan Qarabağ xoş günlərini yaşayır. 32 il əvvəl doğma ocaqlarından göz yaşı içində didərgin düşmüş insanlar bu günlər böyük sevinclə geri qayıdırlar. Başqa bölgələrimiz kimi, artıq şuşalıların da öz şəhərlərinə dönüşü başlayıb. Onlardan biri də Şuşada doğulub boya-başa çatmış və illərdən bəri ata-baba yurdunun gözəlliyini tablolara köçürmüş tanınmış rəssam Rövşən Bayramovdur.**

Mayın 10-dan doğma ocağına qayıtmış R.Bayramov keçirdiyi sevinc hisslərini bizimlə bölüşərək dedi:

- Bu gün ömrümün xoş günlərini yaşayıram. Bizə bu xoşbəxtliyi nəsib etdiyinə görə Prezident İlham Əliyevə minnətdaram. Otuz iki il idi ki, ata-baba yurdumdan qaçqın düşmüşdüm. Bakı şəhərində məskunlaşandan sonra Şuşanın gözəlliyini rəsmlərə köçürürdüm. Bu günə qədər 150 rəsm əsəri çəkmişəm. Qaçqınlıq həyatı yaşadığım vaxtlarda xarici ölkələrdə də Şuşa mövzusunda sərgilər təşkil etmişəm. Harada olmuşamsa, mənim mövzum Şuşa, onun gözəlliyi olub.

Şükürlər olsun ki, artıq doğma ocağımdayam, Şuşadayam. Həyatımın ən gözəl, unudulmaz çağlarını yaşayıram. Bir vaxtlar xəyal edib çəkdiyim gözəl, bənzərsiz mənzərələrlə üz-üzəyəm. İndi bu mənzərələri xəyalən deyil, canlı-canlı gözlərimlə görüb tablolara köçürəcəyəm, yeni-yeni əsərlər yaradacağam. İnanıram ki, yeni əsərlərim daha canlı, daha gözəl olacaq, tamaşaçı zövqünü oxşayacaq. Uzun illər idi ki, bu günü, bu anı gözləyirdim. Xatırlayıram ki, Vətən müharibəsinin davam etdiyi günlərdə Prezident İlham Əliyevin televiziyadakı çıxışlarını dərin maraqla izləyirdim. Ali Baş Komandanın dilindən Şuşanın azad olunması xəbərini eşitməyi həsrətlə gözləyirdim. Nəhayət, illərdən bəri intizarında olduğum xəbəri eşitdim. Həmin dəqiqələrdə eskiz çəkirdim. Tez əlimdəki fırçanı kənara tullayaraq sevinc içində: "Uurraa, Şuşaya qayıdacağıq", - dedim. Artıq arzularımıza çatmışıq, Şuşaya qayıtmışıq.

Mayın 10-da Şuşaya səfər edən Prezident İlham Əliyev başqa şuşalılar kimi mənə də evimin açarlarını təqdim etdi. Təqdimat zamanı söz verdim ki, doğma məkanımda böyük sərgi açacağam və bu sərgidə Şuşanı canlı-canlı görüb təsvir etdiyim əsərlər yer alacaq. Verdiyim sözə əməl edərək hazırda yeni əsərlər üzərində işləyirəm.

İnanırıq ki, rəssam Rövşən Bayramovun fırçasından çıxacaq yeni əsərlərdən zəfər qoxusu gələcək. Zəfər qoxulu əsərlər isə onun sərgisinə gələnlərin zövqünü oxşayacaq.

*V.MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 1 iyun, № 114.- S.11.